KİTABŞÜNASLIQ VƏ REDAKTOR SƏNƏTİ
elmi-nəzəri və təcrübi-metodik jurnal

№ 2 (15) 2022

BİBLİOQRAFİYAŞÜNASLIQ

**Şəhla Əliheydər qızı Qəmbərova**
***Firidun bəy Köçərli adına***
***Respublika Uşaq Kitabxanasının direktoru,***
***Əməkdar Mədəniyyət işçisi***

*UDC 398.2*

# FİRİDUN BƏY KÖÇƏRLİ İRSİNİN BİBLİOQRAFİK ÜSULLA TƏDQİQİ

***Xülasə:*** *Məqalədə Firidun bəy Köçərli irsinin biblioqrafik üsulla təhlili aparılmışdır. Tədqiqata 1920-ci ilə qədər yazılmış əsərlər, Azərbaycan ədəbiyyatında sosializm realizminin qələbəsinə qədər yazılmış əsərlər və müasir tədqiqat əsərləri cəlb edilmişdir.*

***Açar sözlər:*** *Firidun bəy Köçərli irsi, Firidun bəy Köçərlinin əsərləri, sənəd kommunikasiya sistemi, biblioqrafiyaşalaşdırma.*

**Shahla Aliheydar gizi Gambarova**

## Investigation of heritage Firidun bey Kocharli's heritage by bibliographic method

***Summary:*** *The article analyzes Firidun bey Kocharli's heritage by bibliographic method. To research involved works written until 1920, works written on victory of socialism realism in the Azerbaijani literature, contemporary research works.*

***Key words:*** *Firidun bey Kocharli's heritage, Firidun bey Kocharli's works, document-communication system, bibliography.*

**Шахла Алигейдар кызы Гамбарова**

## Исследование наследие Фиридун бека Кочарли с библиографическим методом

***Резюме:*** *В статье анализируется наследие Фиридун бека Кочарли по библиографическому методу. В исследование включены произведения написанные до 1920 года, написанные произведение о победе реализма социализма в азербайджанской литературе, современные исследовательские работы.*

***Ключевые слова:*** *наследие Фиридун бека Кочарли, произведение Фиридун бека Кочарли, система документооборота, библиография.*

Hər hansı sahə üzrə biblioqrafik fəaliyyətin əsas məqsədi cəmiyyətdə həmin sahəyə olan informasiya tələbatlarının ödənilməsindən ibarətdir. (5, s.3) Bu proses isə özündə sənədlər və informasiya tələbatçılarını birləşdirən sənəd kommunikasiya sisteminin formalaşmasını nəzərdə tutur. Sənəd kommunikasiya sisteminin mühüm ünsürü sayılan sənəd kütiəsi biblioqrafik fəaliyyətin bilavasitə obyekti və mühüm tərkib hissəsi kimi özünə məxsus sosial informasiya funksiyasını daşıyır. Bu baxımdan Firidun bəy Köçərli irsinə dair sənəd kütləsi və informasiya mənbəyi kimi biblioqrafiyalaşdırma prosesində əsas obyekt rolunu oynayır.

Yazı və dilin, ədəbi bədii prosesin, mətbuatın inkişafı ilə bağlı olan Firidun bəy Köçərli irsinin biblioqrafiyası müasir səviyyəyə çatana qədər mürəkkəb inkişaf yolu keçmişdir. Bu inkişaf yolunun bütün mərhələlərində həlledici amil Firidun bəy Köçərli irsində meydana gəlib formalaşan sənəd və informasiya axını, cəmiyyətdə həmin sənəd və informasiyaya tələbat olmuşdur. Məlumdur ki, bütün sahələrdə sənəd-informasiya axını vahid sistem olub özündə əlaqələndirilmiş qaydada istehlakçı, sənəd informasiya anlayışlarını birləşdirir. Sənədlər və informasiya tələbatçıları arasında bəşəriyyətin topladığı möhtəşəm sənəd yığımından daha mütərəqqi və səmərəli istifadə olunmasına təsir göstərən vasitəçilərdən biri də biblioqrafiyadır.

Firidun bəy Köçərli irsi sahəsində biblioqrafik fəaliyyətin ən mühüm nəticəsi biblioqrafik informasiyadır ki, bu proses də yalnız sənəd axınının və ona olan tələbatın mövcudluğu şəraitində mümkün ola bilər. XX əsrin əvvəllərində Azərbaycanda Firidun bəy Köçərli irsinə dair sənəd kütləsinin formalaşması M.Quliyevin, K.Talıbzadənin, B.Nəbiyevin, İ.Bəktaşinin, V.Pirəliyev, H.Əhmədovun, Z.Əsgərlinin və başqa mütərəqqi elm və mədəniyyət xadimlərinin adı ilə bağlıdır.

Firidun bəy Köçərli irsinin biblioqrafiyasının sənəd və informasiya bazasının inkişafında ədibin öz əsərlərinin xüsusi əhəmiyyəti vardır.Firidun bəy Köçərlinin irsi xüsusi mərhələ təşkil edir. O, Azərbaycan, eləcə də rus və Qərbi Avropa ədəbiyyatının bir sıra qabaqcıl simalarının yaradıcılığını tədqiq etmiş, nəzər məsələləri elmi cəhətdən əsaslandırmış, demokratik və inqilabi ədəbiyyatın sonrakı inkişafına müsbət təsir göstərmişdir. Xüsusilə, XX əsr Azərbaycan ədəbiyyatının nəzəri, elmi, estetik problemlərini Firidun bəy Köçərlinin orijinal fikirlərindən kənarda təsəvvür etmək çətindir. Buna görə də Köçərli yaradıcılığının mühüm tədqiqat obyektinə çevrilməsi zəruri bir hal kimi meydana çıxır.

XIX əsrin sonlarından bu günə kimi Firidun bəy Köçərli haqqında bir çox elmi-tədqiqat əsərləri yazılmışdır. Azərbaycanda ilk tənqidçilərdən olan Mustafa Quliyev 1930-cu illərdə yazdığı "Azərbaycan ədəbiyyatının inqilabdan əvvəlki yeganə tənqidçisi" adlı əsərində Firidun bəy Köçərlinin zəngin ədəbi irsini yüksək qiymətləndirmiş, "tədqiq və təhlil olunması zəruri olan sənətkar" olduğunu qeyd etmiş, ədəbiyyata aid olan nümunələrin vicdanla və böyük səylə toplanmasında onun böyük xidmətlərini göstərmişdir [3, s.6].

Bu fakt dövrün çox görkəmli tənqidçilərini Firidun bəy Köçərli irsini tədqiq etməyə həvəsləndirmiş, onlara düzgün istiqamət vermişdir. Firidun bəy Köçərli irsi ədəbiyyatın nəinki məzmun və forma məsələlərinə aydın və düzgün münasibətilə xarakterizə olunur, həmçinin realizm, xəlqilik, ənənə və novatorluq, müasirliyə güclü meyl, maarif, məktəb, mətbuat məsələlərinin yeni mövqedən şərhi kimi də nəzəri





cəlb edir. Yarım əsrdən artıqdır ki, Azərbaycanın bir sıra qabaqcıl elm və mədəniyyət xadimləri, görkəmli sənətkarları Firidun bəy Köçərli irsini müxtəlif yaradıcılıq aspektində tədqiq və şərh edirlər.

Firidun bəy Köçərli yaradıcılığı ilə Azərbaycan ədəbiyyatında (XX əsr ədəbiyyatında), xüsusilə tənqid və ədəbiyyatşünaslıqda yeni bir dövr başlanmışdır. Bu cəhətə xüsusi diqqət yetirən ədəbiyyatşünas K.Talıbzadə yazır: "XIX əsrin 80-ci illərindən Firidun bəy Köçərlinin (1863-1920) fəaliyyətə başlaması ilə Azərbaycan ədəbi tənqidi tarixində, xüsusən, realizmin estetik əsaslarının işlənməsi sahəsində yeni bir səhifə açılır. M.F.Axundzadənin məhdud bir çərçivədə aparmağa məcbur olduğu işi o, geniş bir miqyasda davam etdirməyə başlayır, realist ədəbiyyatın fəal tədqiqatçılarından biri olur. Köçərlinin "Kaspi", "Tiflisski listok", "Şərqi-Rus" qəzetlərində çap olunan məqalələri realizmi yeni dövrün əsas yaradıcılıq metodu elan edirdi. O, "hissiyyati-həqiqi ilə bəhəmə gələn" əsərləri, "ata və babalarımızın dolanacağını, ədəb və əxlaqını, arzu və təmənnalarını, fikir və xəyallarını" təsvir edən realist şairləri müasirlərinə nümunə göstərir, formalizmin ədəbiyyata vurduğu ziyanları oxucularına başa salırdı. Tənqidçi xəyala, fikrə heç bir qida verməyən, sxolastik məzmuna, çeynənmiş təsvir vasitələrinə malik epiqonçu şeri tənqid edir, onu müasir ədəbiyyatın inkişafına əngəl olan səbəblərdən biri sayırdı" [3, s.6].

Firidun bəy Köçərlinin irsi ilə əlaqədar yazılmış tənqid və tədqiqat xarakterli əsərləri şərti olaraq belə qruplaşdırmaq olar:

1. 1920-ci ilə qədər yazılmış əsərlər;
2. Azərbaycan ədəbiyyatında sosializm realizminin qələbəsinə qədər yazılmış əsərlər;
3. Müasir tədqiqat əsərləri.

Firidun Bəy Köçərlini elm aləmində geniş şəkildə tanıdan, yaradıcılığı, xidmətləri haqqında həm mübahisəli, həm də orijinal fikirlərin yaranmasına səbəb olan ilk əsəri 1903-cü ildə Tiflisdə nəşr olunan "Azərbaycan tatarlarının ədəbiyyatı" kitabı idi [12]. Bu əsər Azərbaycan ədəbiyyatı tarixinin, klassik irsin, xalq ədəbiyyatının sistemli tədqiqinin əsasını qoyduğu kimi, müasir ədəbiyyat məsələlərini düzgün qiymətləndirmək işində də yazıçı və tənqidçilərə istiqamət verdi. Bəzi nöqsanlarına baxmayaraq, belə bir əsərin meydana çıxması dövrün qabaqcıl ziyalılarını sevindirdi. Kitab çapdan çıxdıqdan bir neçə gün sonra "Tiflisski listok" qəzeti Firidun bəy Köçərliyə birtərəfli yanaşan müəlliflərdən fərqli olaraq, "Azərbaycan tatarlarının ədəbiyyatı" əsərini mütərəqqi bir hadisə kimi qiymətləndirirdi [3, s.6]. "Azərbaycan tatarlarının ədəbiyyatı" kitabı XX əsrin təqdirəlayiq hadisəsi kimi əksər demokratik və maarifçi ziyalıları, xüsusilə də müəllifin özünü hədsiz sevindirmişdi. "Azərbaycan tatarlarının ədəbiyyatı" əsərinin maraqla qarşılandığını görən Firidun bəy Köçərli kitabı yenidən nəşrə hazırlamaq məqsədilə müasirlərini düşündürən məsələləri daha ətraflı öyrənməyə başlayır. Bu məqsədlə axtarışlar aparan müəllif bir çox əlavə məlumat və ədəbiyyat əldə etmiş, nəticədə "Azərbaycan ədəbiyyatı tarixi" kimi iki cild, üç hissədən ibarət sanballı əsər yaratmışdır.

"Azərbaycan tatarlarının ədəbiyyatı" təkcə oxucu və ədəbiyyat maraqlılarının deyil, həm də mərkəzi mətbuatın, nəşriyyatların diqqətini cəlb etmişdi. 1925-ci ildə "Materiallar"ı çap edən "Azərnəşr" kitabda "Firidun bəy Köçərlinin müxtəsər

tərcümeyi-halı"nı da vermişdir. Bu yazıda göstərilirdi ki, Köçərlinin 1903-cü ildə rus dilində çap etdirdiyi "Azərbaycan tatarlarının ədəbiyyatı" daha çox kəşfiyyat xarakterli bir əsər idi. Müəllif "...hələ material toplamaqda ikən ziyalıların nəzər-diqqətini cəlb etmək məqsədilə 1903-cü ildə rusca olaraq yazdığı "Azərbaycan ədəbiyyatı" adlı kitabçanı nəşr etdi. Bu sürətlə öz məqsədinə çatmağa daha geniş bir addım atmış oldu" [3, s.6].

1903-cü ildə Odessada təhsil alan N.Nərimanov da "Azərbaycan tatarlarının ədəbiyyatı" əsərini oxuduqdan sonra müəllifə əsaslı bir məktub göndərir. Bu məktubda o, təkcə öz sevincini deyil, həm də xaricdə təhsil alan bütün azərbaycanlı tələbələrin arzu və istəklərini əks etdirdi: "Sizin bu kitabçanız bütün türk tələbələrinin xoşuna gəldi. Tələbələr bilirlər ki, sizin daha çox materiallarınız var. Bunları siz türkcə çap etdirmək xəyalındasınız. Ona görə çox şad oldular və bunun türkcəsini çapda görmək arzusundadılar" [3, s.6].

Bunlar Firidun bəy Köçərlini daha ciddi düşündürür, onu kitabın azərbaycanca çapına nail olmağa ruhlandırır. O dövrün qəzet və jurnalları Firidun bəy Köçərlinin bu xeyirxah işini təqdirəlayiq hesab edir, öz səhifələrində müəllifin böyük zəhmət bahasına topladığı materialları çap etdirə bilmədiyinə təəssüflənirdilər.

"Zakavkazskoye obozreniye" qəzeti yazırdı: "Məşhur və tanınmış ədəbiyyatşünas Firidun bəy Köçərli geniş həcmdə Azərbaycan türklərinin həyatından bəhs edən "Azərbaycan ədəbiyyatı tarixi" əsərini yazıb bitirmişdir. Bu ilk və birinci kitabdır ki, türk şivəsində və Azərbaycan dilində yazılmışdır. Müəllif uzun illər tədqiqat aparmış və bunun nəticəsində heç kəsə məlum olmayan bir sıra maraqlı materiallar əldə etmişdir. Çox təəssüflə qeyd etməliyik ki, bu qiymətli sənət incisinin mətbuat üzü görməsi bir qədər, bəlkə də daha çox yubanacaqdır. Bu da Firidun bəy Köçərlinin əsəri çap etdirmək imkanına malik olmaması ilə əlaqədardır". Daha sonra "Kaspi", "Baku", "İqbal" qəzetləri səhifələrində də Firidun bəy Köçərlinin böyük zəhmət hesabına əldə etdiyi bu qiymətli materialların çap olunmaması təəssüf hissi ilə qeyd olunmuşdur [3, s.6].

XIX əsrin 90-cı illərindən başlayaraq öz xalqının tarixi keçmişi və müasir ədəbi hadisələri ilə maraqlanan Firidun bəy Köçərli qədim, orta əsrlər ədəbiyyatını diqqətlə izləmiş, mədəniyyət, mətbuat və maarifin düzgün istiqamət almasına kömək etmək məqsədilə bir sıra dəyərli məsləhətlər vermiş və məqalələr yazmışdır. Ona görə Firidun bəy Köçərli sağlığında ədəbi tənqidin diqqətini cəlb etmişdi.

Firidun bəy Köçərlinin ilk və geniş tərcümeyi-halını yazan F. Ağazadə onun həyatını, elmi fəaliyyətini, dünyagörüşünü işıqlandıran dəyərli məlumatlar verir: "Demək olar ki, Firidun bəyin təsiri ilə tərbiyələndirmiş bir çox kimsələr meydana çıxdı... Bunlardan eləsləri vardır ki, Firidun bəyin dəlaləti ilə mahir yazıçılar olmuş və bəziləri də onun göstərdiyi cığırı tutub özlərinə məslək qərar vermişlər... Bəli, Firidun bəy yazıçı idi, dəyərli bir qələm sahibi idi. Onun qələminə yalnız türklər deyil, ruslar, gürcülər belə böyük hörmətlər göstərirdilər. Çünki rusca da onun çox dəyərli məqalələri çap edilirdi. Odur ki, Qafqaz mühərrirləri arasında məşhur olduğu kimi, Moskva, Peterburq şəhərlərində də məşhur idi. Məktubları arasında bir çox dəvətnamələri var. Yəni bir qəzet meydana ilk qədəmini atdığı halda Firidun bəydən məqalə istərdi və o da bu dəvəti diqqətsiz buraxmazdı. Hərgah bu gün Firidun bəyin





türkcə və rusca çap edilmiş məqalələrini siyahıya alsaq, həmin siyahı 15-20 səhifəlik yer tutur" [3, s.6].

Firidun bəy Köçərli ictimai fəaliyyətə başladığı ilk gündən ömrünün sonuna qədər mənsəb və şöhrət dalınca qaçmadan şüurlu, ömrünü xalqının maariflənməsinə, dilin saflığına, ədəbiyyatımızın düzgün istiqamət almasına, dünya xalqlarının mütərəqqi ənənələrinin öyrənilməsinə sərf etmişdir.

Azərbaycanın görkəmli ziyalısı, elm və maarif xadimi Firidun bəy Köçərlinin həyat və yaradıcılığı keçən əsrin ikinci yarısından başlayaraq kifayət qədər geniş öyrənilmiş, əsərlərindən nümunələr təkrar nəşr edilmişdir. Onun yazılı irsinin qalan hissəsinin nəşri isə hələ də aktual olaraq qalırdı. Firidun bəy Köçərlinin əlimizə gəlib çatmış şəxsi arxivi AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır. 19 №-li fondda mühafizə edilən bu arxiv aşağıdakı materialları əhatə edir:

1. Firidun bəy Köçərlinin məktubları – cəmi 16 saxlama vahidi,
2. Firidun bəy Köçərliyə gələn məktublar – cəmi 16 saxlama vahidi,
3. Tərcümeyi-hal sənədləri – cəmi 4 saxlama vahidi,
4. Firidun bəy Köçərli haqqında materiallar – cəmi 8 saxlama vahidi,
5. Fotolar – cəmi 42 saxlama vahidi,
6. Ailəvi sənədlər – cəmi 13 saxlama vahidi,
7. Başqa şəxslər haqqında materiallar – cəmi 4 saxlama vahidi,
8. Çap kitabları – cəmi 12 saxlama vahidi.

Beləliklə, cəmi 115 saxlama vahidi altında mühafizə edilən arxiv 1895-1948-ci illərə aid materiallardan ibarətdir. Bu kitabda Firidun bəy Köçərlinin arxivindəki materialların böyük əksəriyyəti toplanmışdır. Burada yalnız aşağıdakılar obyektiv səbəbdən verilməmişdir:

1) Firidun bəy haqqında məqalənin 7 bəndlik planı,
2) Orxon yazısı nümunəsi,
3) Mirzə Məhəmməd Həsən. Nalə, Bakı, 1916,
4) Mövludi-Şərif, Şamaxı, 1886,
5) "Lüğəti-Naci" nəşr kitabı,
6) Ustav Tiflisskoqo Obhestva Popeçeniə o detəx, Tiflis, 1898,
7) Balalara hədiyyə, Bakı, 1912,
8) Литература Азербейджанских татар [Текст] /сост. Ф. Кочарлинский, Тифлис: 1903.
9) Azərbaycan ədəbiyyatı tarixi materialları. 2 cilddə, Bakı: 1925, 1926 [1, s.3].

Öz dövründə çox çoşqun və hərtərəfli fəaliyyət göstərmiş, keçmiş tələbələrindən tutmuş zəmanəsinin bütün sayılıb-seçilən, görkəmli nümayəndələrinədək geniş ziyalı təbəqəsi ilə tez-tez məktublaşmış və yaradıcılıq əlaqəsi saxlamış, maarifçilik ideyalarının intişarında böyük rol oynamış Firidun bəy Köçərli kimi şəxsiyyətin arxivinin cəmi 115 saxlama vahidindən ibarət olması uyğunsuzluq kimi qiymətləndirilə bilər. Buna görə də arxivi diqqətlə izləmək lazım gəlir.

Materialların böyük əksəriyyətinin ya birbaşa, ya da dolayısı ilə Badisəba xanıma aid olması, külli miqdarda fotolar içərisində Firidun bəy Köçərlinin cəmi bir neçə fotosunun olması və fotomaterialların mütləq əksəriyyətinin Badisəba xanıma

aidliyi, məhz Badisəba xanımın fəaliyyətini əks etdirməsi göstərir ki, əldə olan arxiv əslində Badisəba xanımın topladığı materiallardır. "İstər pedaqoji, istərsə də ədəbiyyatşünaslıq sahəsində yorulmadan çalışan Köçərlinin bu xeyirxah işlərində ona sevimli həyat yoldaşı, dövrünün ziyalı və vətənpərvər qadınlarından biri olan Badsəba xanım yaxından kömək edərdi. Azərbaycan maarifinin və ədəbiyyatının qədrini bilən bu nəcib qadın Köçərliyə sadəcə həyat yoldaşı olaraq qalmamış, eyni zamanda onunla iş, məslək və əqidə yoldaşlığı etmişdir... Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xalq maarifi sahəsində Badsəba xanımın atdığı ilk ciddi və xeyirxah addım onun yenicə təşkil edilməkdə olan xalq məktəblərinə köməyi ilə əlaqədardır. Biz bu gün Firidun bəyin şəxsiyyəti və ilkin arxivi haqqında daha geniş təsəvvür əldə etdiyimiz üçün Fərhad Ağazadəyə minnətdar olmalıyıq. Belə ki, dövrünün tanınmış ziyalısı və alimi olan bu şəxs arxivin ilkin variantını araşdırarkən ağlagəlməz bir uzaqgörənlik nümayiş etdirmiş və Firidun bəyin bütün arxiv materiallarının siyahısını çıxarmışdır. F.Ağazadə müəlliminin biblioqrafiyasını da tərtib etməyə imkan tapmış və bioqrafiyada bu barədə yazmışdır: "Mərhum özü bu məqalələri toplamış və saxlamışdır ki, onun qadını möhtərəmə Badisəbah xanımda durur". F.Ağazadə Firidun bəyin Azərbaycan ədəbiyyatı tarixi materialları kitabı haqqında danışarkən yazır ki, "Firidun bəyin övladı yox idi, amma övladdan artıq bu əsəridi. Hərgah mərhum Firidun bəy sağlığında bilsə idi ki,onun tərəfindən quyulara atılmış əsərini şuralı Azərbaycan meydana çıxaracaqdır, şübhəsiz ki, yuxarıda zikr etdiyimiz həsrətlərin heç birini çəkməzdi. Bu gün haman əsər şuralar əli ilə meydana qədəm qoydu. Əlbəttə, bununla Firidun bəyin ruhu şad və yüksəkdir". Burada müəllif "şuralı Azərbaycan"a mədhiyyə oxumağa məcbur idi. Belə ki, əslində "şuralı Azərbaycan" Firidun bəyin kitabını səmimi qayğı ilə nəşr etməmiş, buna sadəcə olaraq məcbur olmuşdu. Çünki o dövrdə məktəblərdə ədəbiyyat tarixini keçmək üçün hələ heç bir başqa dərslik yazılmamışdı [1, s.4].

Həmin "şuralı Azərbaycan" Firidun bəyi öz "şanlı tarixinin" elə ilk günlərindəcə güllələmiş, adını "xalq düşməni" elan etmişdi. Elə həmin "şuralı Azərbaycan"ın enkevedesi də çox keçməmiş Firidun bəyin şəxsi arxivini darmadağın etmişdir. Firidun bəyin "şuralı Azərbaycan" tərəfindən izi itirilmiş arxivinin Fərhad Ağazadə tərəfindən tərtib edilmiş siyahısı bu kitaba daxil edilmişdir.

Siyahıya nəzər saldıqda hər bir qeyrətli Azərbaycan vətəndaşının, milli ədəbiyyat və mədəniyyət tarixi araşdırıcısının ürəyi ağrımaya bilməz. A.O.Çernyayevskinin 24 məktubu, Nəriman Nərimanovun 2 məktubu, Cəlil Məmmədquluzadənin 22 məktubu, Abbas Səhhətin avtobioqrafiyası və 27 məktubu, Mirzə Ələkbər Sabirin 3 məktubu, Ismayıl bəy Qasprinskinin 11 məktubu, Əhməd bəy Ağayevin 5 məktubu, Ömər Faiq Nemanzadənin 23 məktubu, Yusif Vəzir Çəmənzəminlinin 6 məktubu, Əbdürrəhim bəy Haqverdiyevin 5 məktubu, Nəcəf bəy Vəzirovun 4 məktubu, Hüseyn əfəndi Qayıbovun 7 məktubu, Əlimərdan bəy Topçubaşovun 5 məktubu, Samoyloviçin 3 məktubu, Fərhad Ağayevin 10 məktubu, Abdulla Şaiqin 24 məktubu, Salman Mümtazın 17 məktubu, Üzeyir Hacıbəyovun 14 məktubu, Hüseyn Cavidin 4 məktubu, Seyid Hüseynin 4 məktubu, Rəşid bəy Əfəndiyevin 4 məktubu, Sultan Məcid Qənizadənin 78 məktubu, Məmmədəmin Rəsulzadənin, Haşım bəy Vəzirovun, Abbas ağa Qaibovun, Əhməd bəy Cavanşirin, Sübhanverdixanovun, Əli Səbrinin, Rəşid bəy Axundovun, Məmməd Tağı Sidqinin,





Mirzə Həsən əl-Qədarinin, Mahmud Mahmudbəyovun, Qafur Rəşadın, Ceyhun Hacıbəyovun məktubları... Azərbaycan şairlərinin həyat və yaradıcılığı, şeirləri, nağıl və dastanlar, etnoqrafiya və folklor nümunələri, 500-dən artıq adda materialın hamısı məhv edilmişdir... "Şuralı Azərbaycan" enkevedesi tərəfində.. Üstəlik, zəmanənin xofu da Köçərli irsinin qorunmasına öz təsirini göstərmişdir. "Xalq düşməni" ilə ünsiyyətdə olmuş hər kəs qorxu içərisində yaşayır, belə adamla hər hansı əlaqəsinin izini itirməyə çalışırdı. Məsələn, Qori seminariyasının məzunu Rəcəb Əfəndiyevin oğlu, görkəmli alim Əziz Əfəndizadə xatirələrində göstərir ki, "Firidun bəyin atama yazdığı məktublar saysız-hesabsız idi. Repressiya illərində də onları qoruyub saxlamışdı. 1950-ci ilin bir yay ayında atamın alçaq bir kürsüdə əyləşib yanında mis xəkəndaz qoyduğunu gördüm. Yanındakı qovluqlardan hansı kağızları isə götürüb oxuyur və bir-bir xəkəndaza qoyub kibritlə yandırırdı [1, s.8].

Görkəmli ziyalının təkcə məktub və məqalələrinin deyil, şəxsi arxivində saxladığı digər sənədlərin də taleyi bu cür olmuşdur. F.Seyidov yazır ki, 1918-ci ildə Qori seminariyasının taleyi F.Köçərlidən asılı qalmışdı. Onu harada əsaslandırmağı yalnız o həll edə bilərdi. Çünki Firidun bəy bir tərəfdən Azərbaycan şöbəsinin ən sonuncu inspektoru idi, digər tərəfdən, seminariyanın bütün ləvazimatı onun tabeliyində qalmışdı. Sonralar F.Köçərli Qazax Müəllimlər Seminariyasına elə bir güclü qüvvə toplaya bilmişdi ki, onların qoyduğu ənənə uzun illər yaşamışdı. Vaxtilə həmin seminariyanın Firidun bəyin arxivində olan sənədləri də enkevedeyə gedib qayıtmamışdır...Halbuki sonralar Azərbaycan SSR Maarif Nazirliyinin nümayəndəsi D.Ələsgərovun Badisəba xanıma ünvanlanmış rusca məktubunda Qazax Seminariyasının tarixinin bərpa edilməsində ondan kömək umulurdu... 1958-ci ildə Abdulla Şaiq öz dostu haqqında yazdığı xatirədə "Azərbaycan ədəbiyyatı tarixi materialları" kitabına toxunaraq qeyd edirdi: "Məlum olduğu kimi, F.Köçərlinin bu əsəri XX əsr Azərbaycan yazıçılarını əhatə etmir. O vaxt Manqlisidə F.Köçərli mənə XX əsr ədəbiyyatımız haqqında xüsusi bir əsər yazmaqda olduğunu söylədi və həmin əsərin hazır olan hissələrindən bəzi nümunələr ilə də məni tanış etdi. Lakin müəllifin vəfatından sonra bu əsərin əlyazmalarının necə olduğunu, təəssüf ki, heç birimiz bilmirik". Firidun bəy Köçərli arxivinin mühüm bir hissəsini məktublar təşkil edir. Arxivin ilkin fondundakı məktubların mütləq əksəriyyətinin məhv edildiyi nəzərə alındıqda əlimizə çatan materialların Firidun bəyin yazışmalarının çox cüzi bir hissəsini əks etdirdiyi məlum olur. Ünvanlar nəzərə alındıqda, yəqin ki, məhv edilmiş məktubların ictimai və elmi dəyərinin daha böyük olduğunu etiraf etmək lazım gəlir. Arxivdə mühafizə edilən kiçik ölçülü kağızlarda və açıqçalarda yazılmış məkub mətnləri daha çox şəxsiəhəmiyyət kəsb edir. Bununla belə, bizə çatmış məktubların özü də müəllifi bir insan kimi səciyyələndirməyə, Qori Seminariyasının daxili ab-havası haqqında müəyyən qənaətlərə gəlməyə, Firidun bəyin azərbaycanlı tələbələrə və həmkarlarına münasibəti haqqında kifayət qədər dolğun təsəvvür əldə etməyə imkan verir [1, s.11].

Görkəmli pedaqoq Mehdixan Vəkilov öz xatirəsində qeyd edir ki, F.Köçərli vətənini, xalqını və dilini böyük məhəbbətlə sevən vətənpərvər bir alim idi. Ömrünün axırına kimi övladı olmayan Firidun bəy bütün məhəbbətini, mehr və ülfətini, ümid və arzularını seminariyada oxuyan azərbaycanlı balalarına bağlamışdı və onun məktublaşmaları bu fikri təsdiq edir. Onun hətta qətlinə bir neçə gün qalmış

məhbəsdən Badisəba xanıma göndərdiyi 17 may 1920-ci il tarixli bir namədə, ömrünün ən ağır dəqiqələrində də müəllim yoldaşlarını və şagirdlərini unutmadığını, onlara salam göndərdiyini görürük. Həmin kağızda Badisəba xanımdan çox darıxmamasını təvəqqe edir, ona insanın başına hər cürə qəza gələ biləcəyini yazırdı. Son cümlələrindən hiss olunur ki, Firidun bəy tezliklə hər şeyin yaxşı olacağına ümid edir, aqibətinin yaxınlaşdığını təsəvvürə gətirmirdi... Mərhum yazıçı Altay Məmmədov hələ çap olunmamış bir kitabında Firidun bəyin qətli ilə bağlı Mir Cavad adlı qocaman bir müəllimin xatirəsini vermişdir. Bu xatirədənməlum olur ki, Azərbaycan ziyalılığının ən parlaq nümayəndələrindən biri Firidun bəy Köçərli cəllad kötüyünə də dilində düzlük və həqiqət sözləri ilə getmişdir [1, s.15].

Firidun bəy Köçərlini mənsəb və şöhrət heç vaxt maraqlandırmır. Onu düşündürən xalqın sənət incilərini toplamaq, sahmana salmaq, ana dilinin saflığı və təmizliyi uğrunda mübarizə olmuşdur. O, Abdulla Şaiqə yazırdı: "Ana dilini yaxşı bilməkdən ötrü lazımdır Qasım bəy Zakir, Molla Pənah Vaqif, İskəndər ağa Şair kimi milli şairlərimizin əsərləri oxunsun. Çifaidə bunlar da çap olunmayıbdır və bu əsərlərin çoxu itib-batıb, tərk olubdur. Ələ düşəni mən toplayıb bir qayda üzrə tərtib qılmışam. Onları da çap etdirməyə təvanım yoxdur" [7, s.172].

Köçərli, demək olar ki, dövrünün bütün mütərəqqi maarif və ədəbiyyat xadimləri ilə əlaqə saxlamış və onlarla məktublaşmışdır. Bu məktubların əksəriyyəti, məlum olduğu kimi, çap olunmayaraq itib-batmış "Azərbaycan ədəbiyyatı tarixi materialları"na aid olmuşdur. Müəllifin Azərbaycan SSR Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun Əlyazmaları şöbəsində saxlanılan "Azərbaycan klassik yazıçı və şairlərinin ayrı-ayrı əsərlərinin siyahısında (iki dəftər) "Azərbaycan ədəbiyyatı tarixi"nə daxil olan və olmayan bir sıra şəxsiyyətlərin adları dövrünə və mühitinə görə qruplaşdırılmışdır. İkinci dəftərin sonuna isə ikicildlik "Azərbaycan ədəbiyyatı tarixi"nə daxil olmuş müəlliflərin siyahısı əlavə edilmişdir. Hər iki dəftərdən aydın olur ki, Firidun bəy Köçərli 410-dan çox görkəmli yazıçı və şairlərlə məktublaşmışdır. Bunlardan başqa həmin dəftərlərdə müəllifin özü tərəfindən yazılmış 24-dən çox məqalənin siyahısı da vardır.

Bu məktublar "Ədəbiyyat tarixi"nin meydana gəlməsində mühüm rol oynadığı kimi, onlarca müasir sənətkarı da epiqonçu şerin təsirindən uzaqlaşdırmış, realizm yoluna salmış, onlara düzgün istiqamət vermiş və yazıb-yaratmağa ruhlandırmışdır.

Ədəbiyyatşünasın müasiri Abbasağa Qayıbov Nazir F.Köçərli ilə gec tanış olmasına təəssüflənərək, 1909-cu ildə ona göndərdiyi məktubda yazırdı: "Hərgah qırx il bundan əqdəm mənim şerimə sizin kimi qədir-qiymət verən olsaydı, indiyə kimi 30-40 cild kitab yazardım" [3, s.6].

Firidun bəy Köçərli irsinin öyrənilməsi sahəsində bir çox alimlər tərəfindən müxtəlif tipli nəşrlər yaranmışdır ki, bu nəşrlərə ilk öncə 1963-cü ildə Bəkir Nəbiyevin müəllifliyi ilə Azərbaycan SSR EA nəşriyyatında nəşr olunmuş "Görkəmli tədqiqatçı və ədəbiyyatşünas (1863-1920)" monoqrafiyasının misal göstərmək olar. Monoqrafiyanın redaktoru Şıxəli Qurbanovdur [8, s.3].

Monoqrafiyanın birinci fəsli "Həyatı və pedaqoji fəaliyyəti"; ikinci fəsli "Ədəbi-tənqidi görüşləri"; üçüncü fəsli "Azərbaycan ədəbiyyatı tarixi materialları" adlanır. Monoqrafiyaya müxtəsər biblioqrafiyanın əlavə edilməsi monoqrafiyanın biblioqrafik mənbə baxımından əhəmiyyəti artırır. Adı çəkilən müəllifin 1984-cü ildə nəşr





olunmuş "Firidun bəy Köçərli: Mənalı ömürdən səhifələr" monoqrafiyası da eyni zamanda Firidun bəy Köçərlinin irsinin öyrənilməsinə xidmət edir. Gənclik nəşriyyatında çap olunan monoqrafiyaya "Ön söz" [9, s.3]; "Fikirlər karvanı" [9, s.15]; "Böyük yolun başlanğıcı" [9, s.32]; "Ən dəqiq meyar-xalqa xidmətdir" [9, s.74]; "Əziz və mübarək kitab" [9, s.149]; "İstifadə olunan ədəbiyyatın müxtəsər siyahısı" [9, s.214] daxil edilmişdir.

1986-cı ildə İ.Bektaşinin müəllifliyi ilə nəşr olunan monoqrafiya "Firidun bəy Köçərlinin yaradıcılıq yolu" adlanır. Bu monoqrafiyada F.Köçərli irsi ədəbi tənqiddə [2, s.6-25]; Klassik ədəbiyyatın tədqiqi [2, s.26-108]; Ədəbi tənqidi məqalələr [2, s.109-115]; Qardaş xalqlar ədəbiyyatı haqqında [2, s.116-139]; Dilimizin saflığı uğrunda mubarizə [2, s.140-155]; Uşaq və xalq ədəbiyyatına məhəbbət [2, s.156-183] başlıqları Köçərli irsinin öyrənilməsi aspektindən diqqəti çəkir.

Firidun bəy Köçərli irsinin öyrənilməsi baxımından önəmli olan monoqrafiyalardan biri də Veydəddin Pirəliyevin "F.B.Köçərlinin publisistikası" adlı monoqrafiyasıdır. 2010-cu ildə Bakıda nəşr olunan monoqrafiyanın redaktoru X.Q.Məmmədovdur [10, s.2].

Monoqrafiyada F.B.Köçərli publisistikasında milli intibah məsələsi; F.B.Köçərli publisistikasında xalq maarifi məsələləri, Azərbaycan publisistikasının inkişaf mərhələləri və F.B.Köçərli publisistikası; F.B.Köçərli publisistikasında bədii ədəbiyyatdan istifadə üsulları; F.B.Köçərli publisistikasının sənətkarlıq xususiyyətləri; Firidun bəy Köçərlinin "Ana dili" məqaləsi; "Ana dili" məqaləsi: mübahisələr və müzakirələr kimi məsələlərə aydınlıq gətirilmişdir.

H.Əhmədovun müəllifi olduğu 2013-cü ildə nəşr olunan "Maarif fədailəri: Qoşa qanad" adlı kitabda Qori Müəllimlər Seminariyasının iki tanınmış məzunu F.Köçərli və R.Əfəndiyevin elmi pedaqoji fəaliyyəti işıqlandırılır. Həmçinin kitabda H.Əhmədov. On soz; Firidun bəy Köçərlinin anadan olmasının 150 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı; İrəvan gimnaziyasının Azərbaycan dili müəllimi [4, s.12-33]; F.Köçərli: İrəvan elmi pedaqoji və ədəbi mühiti [4, s.34-61]; F.Köçərli: Gürcü elmi-pedaqoji və ədəbi mühiti [4, s.62-70]; Məşhur maarifçi, böyük ziyalı və ürəyi atəşli müəllim [4, s.71-84]; F.Köçərli və Qazax Müəllimlər Seminariyası [4, s.85-95]; F.Köçərlinin İrəvan Gimnaziyasında Azərbaycan dili proqramı [4, s.96-102]; F.Köçərlinin bəzi məqalələrindən parcalar [4, s.103-109]; F.Köçərli ilə Əli Huseynovun 1918-ci ildə "Azərbaycan" qəzetində dərc edilmiş məqalələrinin surətləri [4, s.120-121] daxil edilmişdir.

2015-ci ildə Mehriban Şirzadənin müəllifliyi ilə nəşr edilmiş "Milli-mənəvi dəyərlərimizin ədəbi, bədii və pedaqoji abidəsi" adlı monoqrafiyada məşhur Azərbaycan pedaqoqu, tanınmış maarifçi Firidun bəy Köçərlinin həyat və fəaliyyətindən bəhs olunur. Onun 1912-ci ildə nəşr etdirdiyi "Balalara hədiyyə" kitabında öz əksini tapmış milli-mənəvi tərbiyəsində, şəxsiyyət kimi formalaşmasında bu gün də əhəmiyyətini saxlayan, aktuallığı ilə seçilən elmi-pedaqoji dəyərləri aşkarlanır və qiymətləndirilir. Monoqrafiya "Elm və təhsil" nəşriyyatında işıq üzü görmüşdür [11, s.2].

2016-cı ildə "Elm və təhsil" nəşriyyatında Pərixanım Mikayılqızının müəllifliyi ilə çap olunmuş "Firidun bəy Köçərli: "Ümmətdən-millətə doğru" adlı monoqrafiya bütünlüklə Firidun bəy Köçərlinin yaradıcılığından bəhs edir [6]. Əsərdə ayrı-ayrı

mövzular haqqında materiallar toplanaraq, geniş şərhi verilmişdir. Həmçinin kitabda klassik ədəbiyyatımızın dəyərli nümayəndələrindən, dövrün ictimai-siyasi hadisələrindən, savadsızlığın ləğv edilməsi uğrunda ziyalılarımızın apardığı mübarizədən, cəmiyyətdə qadın hüquqsuzluğunun aradan qaldırılmasından, dini fanatizmin başımıza gətirdiyi bəlalardan, ölkəmizdə millilik ruhunun oyanması və digər məsələlərdən çox geniş məlumat verilmişdir.

Beləliklə, Azərbaycan ədəbiyyatşünaslığı və pedaqoji fikri tarixində məşhur Azərbaycan alimi, tənqidçi və pedaqoqu kimi dəyərləndirilən Firidun bəy Köçərli tərəqqipərvər elm və ədəbiyyat xadimləri sırasında xüsusi yer tutan şəxsiyyətlərdən olduğuna görə, onun irsi bütün dövrlərdə tədqiqat obyektinə çevrilir.

## ƏDƏBİYYAT

1. *Adilov M. Ön söz əvəzi // Firidun bəy Köçərlinin şəxsi arxivi. - Bakı: Nurlan, 2006, 280 s.*
2. *Bəktaşi, İ. Firidun bəy Kocərlinin yaradıcılıq yolu. - Bakı: Yazıcı,1986, 83 s.*
3. *Bəktaşi İ. Firidun bəy Köçərli irsi ədəbi tənqiddə// "Ədəbiyyat" qəzeti, Bakı, 2013, s.6.*
4. *Əhmədov, H. Maarif fədailəri: Qoşa qanad. - Bakı: ADPU, 2013, 199 s.*
5. *İsmayılova S. Bədii ədəbiyyat və ədəbiyyatşünaslıq üzrə sənəd kütləsi biblioqrafiyalaşdırma obyekti kimi: Dərs vəsaiti. - Bakı: BDU, 2008, s.87.*
6. *Mikayılqızı P. Firidun bəy Köçərli: "Ümmətdən-millətə doğru". - Bakı: Elm və təhsil, 2016, 490 s.*
7. *"Müşfiqi-mehribanım Mirzə Abdulla" (Firidun bəy Köçərlinin Abdulla Şaiqə məktubları) // "Azərbaycan" qəzeti. Bakı, 1967, №6, s.168-176.*
8. *Nəbiyev, B. Görkəmli tədqiqatçı və ədəbiyyatşünas (1863-1920) / Azərbaycan SSR EA Nizami ad. Ədəbiyyat İnstitutu. - Bakı: Az. EA, 1963, 164 s.*
9. *Nəbiyev, B. Firidun bəy Kocərli: Mənalı ömürdən səhifələr. - Bakı: Gənclik, 1984, 228 s.*
10. *Pirəliyev, V. F.B.Köçərlinin publisistikası: Monoqrafiya.-Bakı, 2010, 335 s.*
11. *Şirzadova M. Milli-mənəvi dəyərlərimizin ədəbi, bədii və pedaqoji abidəsi: Monoqrafiya. - Bakı: Elm və təhsil, 2015, 140 s.*
12. *Литература Азербейджанских татар (Текст) / сост. Ф.Кочарлинский. - Тифлис, 1903.*